## AZƏRBAYCAN RESPUBLİKASI

## BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

## Ə M R İ

---

**№ 20** **27 fevral 2013 - cü il**

**Binəqədi Rayon İcra Hakimiyyətinin İnformasiya Texnologiyaları sahəsində Strategiyası və Tədbirlər Planının təsdiq olunması haqqında**

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 6 avqust 2012-ci il tarixli, 79 saylı əmrinin icrasının təmin edilməsi, vətəndaşlara göstərilən elektron xidmətlərin genişləndirilməsi, icra inzibatçılığının bütün sahələrində intellektual təhlil imkanlarının ən müasir tələblərə çatdırılması Binəqədi rayon İcra Hakimiyyətində İnformasiya Texnologiyalarının davamlı inkişafının təmin olunması məqsədilə uzunmüddətli strategiyanın və tədbirlər planının hazırlanıb həyata keçirilməsini nəzərə alaraq və "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndini rəhbər tutaraq

**ə m r   e d i r ə m :**

1. "İnformasiya Texnologiyaları sahəsində Binəqədi rayon İcra Hakimiyyətinin Strategiyası" və "İnformasiya Texnologiyaları sahəsində Binəqədi Rayon İcra Hakimiyyətinin Strategiyasının həyata keçirilməsi üzrə Tədbirlər Planı (2013-2014-cü illər)" təsdiq edilsin (əlavə olunur).
2. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının Aparatının struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə yerinə yetirlməsini təmin etsinlər.
3. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının 6 avqust 2012 –ci il tarixli 76 saylı əmrinin 1-ci və 4-cü bəndləri qüvvədən düşmüş hesab edilsin.
4. Binəqədi Rayon İcra Hakimiyyətində "İnformasiya Texnologiyaları sahəsində Binəqədi Rayon İcra Hakimiyyətinin Strategiyası" və "İnformasiya Texnologiyaları sahəsində Binəqədi Rayon İcra Hakimiyyətinin Strategiyasının həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın (2013-2014-cü illər) həyata keçirilməsini təmin etmək məqsədilə aşağıdakı tərkibdə işçi qrup yaradılsın:

**İşçi qrupunun rəhbəri:**

İlqar Süleymanov Binəqədi RİH başçısının müavini

**İşçi qrupunun rəhbərinin müavini:**

| | |
|---|---|
| Elnur İmanov | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |

**İşçi qrupunun üzvləri:**

| | |
|---|---|
| Rühəngiz Əliyeva | İnformasiya təminatı və təhlil sektorunun müdiri |
| Ramiz Göyüşov | Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| Yunis Hüseynov | Hüquq şöbəsinin müdiri |
| Aqil Eyvazov | İctimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| Yəhya Əliyev | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| Anar Səfərov | Binəqədi RİH-in Sakinlərin Müraciət Xidmətinin rəisi |

5. Binəqədi Rayon İcra hakimiyyəti başçısının müavini İlqar Süleymanova tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə icrası ilə bağlı koordinasiyanı, eyni zamanda nəzarəti həyata keçirsin.
6. İşçi qrup görülmüş işlərlə əlaqədar mütəmadi olaraq müzakirələr keçirsin və nəticəsi barədə rəhbərliyə məlumat versin.
7. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**